# Fransanın ənənəvi davranışı

## Rəsmi Paris Cənubi Qafqazda mənfur təcrübəsini tətbiq etməyə çalışır

**"Təəssüf ki, Fransa Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışır".**

Bu fikirləri Prezident İlham Əliyev bu ilin iyulun 5-də Bakıda Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə Fransanın Azərbaycanın daxili işinə müdaxiləsindən bəhs edərkən söyləyib. Dövlət başçısı xüsusilə vurğulayıb ki, özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransa hələ də digər ölkələrin daxili işlərinə qarışır.

Avqustun 15-də Fransanın Avropa və xarici işlər naziri Katrin Kolonanın erməni həmkarı ilə telefon danışığı nəticəsində Fransa tərəfindən verilmiş açıqlamada Azərbaycana qarşı irəli sürülmüş əsassız iddialar da bunu bir daha sübut edir. Ölkəmiz əleyhinə qətnamələr qəbul etməyi, bəyanatlar yayıb, açıqlamalar verməyi vərdiş halına çevirən Fransa hər addımında erməni lobbisinin oyuncağına çevrildiyini təsdiqləyir.

### Fransa Ermənistanın manipulyasiyalarının əsirinə çevrilib

Laçın yolunun "blokada"da saxlanıldığı və "erməni sakinlərin ciddi humanitar böhranla üzləşdiyi" ilə bağlı həqiqəti əks etdirməyən iddialara Azərbaycanın cavabı bu dəfə də gecikməyib. Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda vurğulanıb ki, Laçın yolunda vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin təhlükəsizliyinə zəmanət verilməsi öhdəliyinə uyğun olaraq, eləcə də Ermənistan tərəfindən bu yoldan hərbi və qeyri-qanuni iqtisadi məqsədlər üçün sui-istifadə hallarının qarşısını almaq məqsədilə təsis etdiyi Laçın sərhəd-buraxılış məntəqəsinin fəaliyyətinin blokada kimi qələmə verilməsi absurddur.



XİN həmçinin fransız nazirin Ermənistanın saxta təbliğatına inanaraq, Avropa İttifaqının Ermənistandakı missiyası tərəfindən də yanlış olaraq dəyərləndirilən, guya, missiyaya qarşı atəş açılması barədə dezinformasiyaya bəraət qazandırmasına da münasibət bildirib. Qeyd olunub ki, bu, Fransanın bölgədə sülh və sabitliyin bərqərar edilməsində maraqlı olmadığını bir daha sübut edir.

Açıq-aydın ortadadır ki, Fransa, guya, erməni sakinlərin halına yanaraq, öz məkrli planlarını yürütməyə çalışır. Çünki gün ərzində Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) vasitəsilə məhz Laçın yolundan erməni sakinlərinin hər iki istiqamətdə keçidinin təmin edilməsi Fransaya yaxşı məlumdur. Bununla yanaşı, Beynəlxalq Ədalət Məhkəməsinin 22 fevral tarixli qərarına istinad edən Fransa tərəfinin, Laçın sərhəd-buraxılış məntəqəsinin aradan qaldırılması barədə Ermənistanın tələbinin sözügedən məhkəmə tərəfindən yekdilliklə rədd edilməsinə əhəmiyyət verməməsi də bu ölkənin xəstə niyyətli olmasından xəbər verir.

Unutmaq olmaz ki, Azərbaycan erməni sakinlərin gündəlik tələbat mallarına ehtiyaclarını ödəməkdən ötrü lazım olan yüklərin daşınması üçün Ağdam-Xankəndi yolu kimi daha rahat və sərfəli yol təklifini irəli sürüb. Lakin Avropa İttifaqı və BQXK-nin də Ağdam yolundan istifadəyə dəstək verməsinə baxmayaraq, rəsmi Paris bütün bunlara məhəl qoymur, Ermənistanın nazını çəkir və onun siyasi manipulyasiyalarına aldanaraq qeyri-obyektiv açıqlamalar səsləndirir.

### Fransanın düşmənçiliyinin mənbəyi türkofobiya və islamofobiyadır

Əslində, tarixi qan-qada ilə dolu olan Fransadan yaxşı nəyisə, xüsusilə də onun beynəlxalq hüquq və humanizm prinsiplərinə əməl etməsini gözləmək ağılsızlıq olar. Bu ölkənin tarixboyu törətdiyi cinayət və qətliamlar, həyata keçirdiyi amansız müstəmləkəçilik siyasəti onun Ermənistana belə dərin sevgisinin səbəblərini açıb ortaya qoyur. Fransa terrorçu və işğalçı mahiyyətinə görə Ermənistana bənzəyir, ona görə də xislətləri zay olan bu dövlətlər və millətlər daim bir-birilərinə dəstək nümayiş etdirirlər.

Fransanın düşmənçiliyinin əsas mənbələrindən bir neçəsi də orada dərin kök salmış türkofobiya və islamofobiyadır. Şəxsən prezident Emmanuel Makronun zaman-zaman müşahidə etdiyimiz qərəzli davranışları onun Türk və İslam dünyasına nifrətindən irəli gəlir. Məhz onun hakimiyyəti illərində Fransada vətəndaşlığından asılı olmayaraq, bütün müsəlmanlara qarşı nifrət aşılanır. Bu kimi faktlar da erməni-fransız "birliyi"nin güclənməsinə, özünü mədəniyyətin və demokratiyanın beşiyi kimi təqdim edən Fransanın erməni sevdasının möhkəmlənməsinə səbəb olur.

### Ermənipərəst mövqe və çıxışlar Azərbaycanı qətiyyən narahat etmir

Vətən müharibəsi zamanı Ermənistanı hərtərəfli dəstəkləyən rəsmi Paris postmüharibə dövründə də Qarabağda yaşayan ermənilərin "hüquqları"nın saxtakarcasına müdafiəsinə qalxmaqla separatizmə və revanşizmə xidmət edir.

Lakin bütün bunlar - erməniпərəst mövqe və çıxışlar, ədalətsiz və yalan bəyanatlar, eləcə də xarici güclər tərəfindən "Ermənistan ordusu"nun arsenalına yığılan silah-sursatlar Azərbaycanı qətiyyən narahat etmir. Ölkəmizin bugünkü inkişaf sürəti, dövlət-xalq-ordu birliyinin möhkəmliyi, öz lideri ətrafında sıx birləşmiş xalqımızın iradə və qətiyyəti, belə cılız faktların fövqündə dayanır.

Azərbaycanın Müzəffər Ali Baş Komandanı və qüdrətli ordusu var. Bunu dünya da, Ermənistan da yaxşı bilir ki, əgər yenidən müharibə olarsa, Azərbaycan Ordusu düşməni yenə də qarşısında diz çökdürəcəkdir.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 17 avqust.- S.5.